# Ən yaxşı müəllimin dərs nümunəsi

**Nərgiz HƏSƏNOVA,**
*Bərdə şəhər 8 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi, əməkdar müəllim , "Ən yaxşı müəllim" müsabiqəsinin (2011) qalibi*

2011-ci ildə "Təlim məqsədlərinə aid didaktik materiallar" kitabının, 2012-ci ildə birinci sinif "Riyaziyyat" dərsliyi üzrə "Müəllimə kömək" vəsaitinin müəlliflərindən biriyəm. Bütün dərslərimi demək olar ki, müasir təlim metodları ilə qurub aparıram. Onlardan birinin qısa icmalını oxuculara təqdim edirəm.

*Fənn:* Azərbaycan dili.

*Sinif:* IV

*Mövzu:* "İki qonşu".

*Standart:* 2.2.1

Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur.

2.2.3 Verilmiş mətni genişləndirmək və davam etdirmək məqsədi ilə yaradıcı plan tutur.

2.2.5 Mətnin məzmununu genişləndirilmiş formada yaradıcı nəql edir.

*Məqsəd:* - Mətnlə bağlı sualları cavablandırır.

- Mətnə yeni obraz və epizodlar əlavə etməklə nəql edir.

- Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir.

*Dərsin tipi:* Deduktiv.

*Resurslar:* Dərslik, iş vərəqləri.

*İş forması:* Kollektivlə, qruplarla iş.

*İş üsulu:* "Beyin həmləsi", müzakirə, sual-cavab.

*İnteqrasiya:* Həyat bilgisi, riyaziyyat.

*Motivasiya:* Motivasiya yaratmaq üçün sinfə belə bir sualla müraciət edirəm:

- İnsan nə vaxt çətinliklərin öhdəsindən asanlıqla gəlir?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər:

- Qohumları çox olanda;

- Yaxşı qonşuları olanda;

- Dost-tanışları olanda.

Şagirdlərin irəli sürdükləri fərziyyələri dəyərləndirir və s. sonuncu fikrin üzərində dayanılır. Şagirdlərə dostluq haqqında atalar sözləri söyləmələrini təklif edirəm. Şagirdlər müxtəlif atalar sözləri söyləyirlər. Sonra tədqiqat sualı qoyulur.

*Tədqiqat sualı:* "Dost gəlişi bayram olar" atalar sözü haqqında hansı düşüncələriniz və fikirləriniz var?

Şagirdlər fikirlərini və düşüncələrini paylaşırlar.

M.: - Sizə aşağıdakı sualları verəcəyəm və cavabların ilk hərflərini şaquli istiqamətdə oxusanız yeni mövzunun adını öyrənəcəksiniz.

1) Varlığın adını bildirən nitq hissəsi.

2) İnsan bildirən isimlər hansl suala cavab olur?

3) Ən kiçik cüt ədəd neçədir?

4) Ən soyuq fəsil hansıdır?

5) Ən kiçik ikirəqəmli ədəd neçədir?

6) Aldım bir dənə, açdım min dənə?

7) "Acı" sözünün antonimi.

8) "Qısa" sözünün antonimi.

Şagirdlər sualları cavablandırır və düzgün cavabları şaquli istiqamətdə yazırlar

İsim
Kim?
İki
Qış
On
Nar
Şirin
Uzun

Tapılan sözlərin ilk hərfləri şaquli istiqamətdə oxunur və mövzunun adı - "İki qonşu" müəyyənləşdirilir.

*Tədqiqatın aparılması:* Dərslikdəki "İki qonşu" mətni oxunur.

Suallar:

1) Hadisə ilin hansı fəslində baş vermişdir?

2) Sizcə, Səmədin evinin qarşısı və evinə gələn cığır niyə təmiz olurdu?




3) Mətnə əsasən Ənvəri necə insan kimi qiymətləndirirsiniz?

4) Sizcə, bu söhbətdən sonra Ənvər dəyişəcəkmi?

Müzakirələr aparılır və şagirdlər fikirlərini söyləyirlər.

3 qrup müəyyənləşdirilir və onlara aşağıdakı tapşırıqlar verilir.

1-ci qrup:

1. "Dostsuz insan - qanadsız quş" atalar sözünə münasibətinizi bildirin.

2. "Sədaqətli dost" söz birləşməsini cümlədə işlədin, baş üzvləri tapın.

2- ci qrup:

1. "Dost min olsa azdır, düşmən bir olsa çoxdur" atalar sözünə münasibət bildirin.

2. "Dost" sözünü fonetik təhlil edin.

3-cü qrup:

1. Mətnə bir neçə obraz və epizod əlavə edib nəql edin.

2. "İki qonşu" mətninin ideyasını yazın.

*İnformasiyanın müzakirəsi:* Qrup işləri təqdim olunur, müzakirə edilir, qruplar qiymətləndirmə aparırlar.

*Nəticə və ümumiləşdirmə:*

M.: - Dost-tanışın çox olmasının faydası nədir? Bunun üçün insan ətrafdakılarla necə davranmalıdır? İnsanın hansı müsbət keyfiyyətlərinə görə evinə gələn-gedən çox olur? və s. kimi suallar verməklə alınan cavablardan ümumi nəticəyə gəlinir ki, dostu, tanışı çox olan adamın arxası da möhkəm olur. İnsanın evinə dostları nə qədər çox gələrsə evi şən olar.

*Yaradıcı tətbiqetmə:* Mətni elə danışmağa davam edin ki, Ənvər dəyişsin, dostlarını evinə dəvət etsin. Qonşuların sonrakı həyatının necə davam edəcəyinə aid fikirlərinizi bildirin.

*Qiymətləndirmə:* Müşahidə, qrup təqdimatları, sual-cavab əsasında təlimin nə dərəcədə reallaşdığı qiymətləndirilir.